# SEVGİNİN QARDAŞLIQ RUHU



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

***(Əvvəli ötən sayımızda)***

Amma əsas tarixi həqiqətləri qoruyaraq tarixin gedişatına təsir göstərmək liderin qətiyyətindən asılıdır. Məlumdur ki, lider rəhbərlik etdiyi toplumu fəlakətə də apara bilər, işıqlığa da çıxara bilər. Ancaq tarixi yol göstərdi ki, 90-cı illərin əvvəllərində Azərbaycan hansı girdaba düşmüşdü. Həmin girdabdan Heydər Əliyev xalqı xilas etdi.

Eləcə də, İlham Əliyev məhz Ərdoğanın dəstəyi ilə ən böyük həqiqətin sahibi oldu, Qarabağı işğaldan azad etdi.

Tədqiqatçı Əli Bəbiroğlu Əli Rza Xələflinin “Türkiyənin zəlzələ ağrıları” poemasında insanların iztirablarının da necə həssaslıqla verildiyinə diqqət göstərir. Axı fəlakət, ölüm, qan, zəlzələ insanın iqtidarını əlindən alır, insanın gücünü sarsıdır. Hətta insan elə bir məqam gəlir ki, bircə qurtum suya görə inləyir. Həyatının yalnız həmin bircə qurtum sudan asılı olduğunu düşünür. Belə bir məqamda biz türk liderinin xalq arasında olduğunu görürük. Onun sonsuz istək və sevgiylə, eyni zamanda çox böyük kövrəkliklə fəlakətə düçar olmuş insanların dərdinə şərik olduğunu təbii şəkildə göstərir.

Burada bir məsələyə də diqqət etmək lazımdır; zəlzələ hesablanmamış hadisədir. Zəlzələ baş verir, davam edir və dayanır. Heç gözlənilmədən bir də təzədən dəhşətini göstərə bilər. Belə bir vaxtda Əli Bəbiroğlu “Rəis” deyə andığı ədəbi qəhrəmanın və böyük türk liderinin qorxmazlığını da unutmur. O, insanların arasına gəlir, onlarla həmrəng olduğunu, onlarla yaxın, doğma olduğunu, onların dərdinə nə qədər doğmalıqla munis olduğunu göstərir.

Əli Bəbiroğlu əsəri diqqətlə oxuyub. Çünki hiss olunacaq dərəcədə əsərdən aldığı ayrı-ayrı motivləri sevgi ilə şərh edir. Onun poemadan aldığı beytlərə verdiyi şərhlərin hamısında biz həssas söz adamının, tədqiqatçının son dərəcə emosional bir şairin düşüncələrinə sevgili münasibətini görürük.

Açığı, mənə elə gəlir ki, əgər əsərin sarsıdıcı təsiri olmasaydı, başqa sözlə, Əli Rza Xələflinin “Türkiyənin zəlzələ ağrıları” poemasının düşüncələrə zəlzələ təsiri olmasaydı, heç bu cür dərin düşüncədən gələn duyğular da qələmə alına bilməzdi.

Müəllif poemada bir neçə yerdə “Sultanım” deyə türk-Turan liderinə müraciət edir. Müraciətin özündə bir sevgi motivi var. Yüksək duyğulanma var. Hiss olunur ki, bu motivi Əli Bəbiroğlu da bütün çalarları ilə hiss edib. Hətta o da yazısında “Sultanım” ifadəsini türk liderinin ünvanına öz müraciəti kimi təkrarlayır. Başqa sözlə, öz sevgisini əsərdən gələn xitabla ifadə etməyə çalışır və buna deyərdim ki, uğurla nail olur: “*Ərdoğana "Sultanım" müraciətiniz də Türk qardaşları arasında salınan ümid, inam, dostluq və etibar körpüsünü xarakterizə edir. Etiraf edək ki, bu körpünün təməlləri qoyulmuşdu, az-çox iş də görülmüşdü, lakin mütəmadilik, ardıcıllıq yetərincə deyildi. Yeni dönəm yeni əməli fəaliyyət tələb edirdi. Dünya gücləri yeni məkanlar axtarışındaydı. Qardaş türk xalqları birliyini yaratmaq an və gün məsələsi olmuşdu. Türk və Azərbaycan birliyi məhz belə bir vaxtda yarandı. "Sultanım" deyiminizə yaraşan epitet tapmaq, yeni söz demək istədim, aciz qaldım və yenə əlimdən tutan, köməyimə gələn dastanınız oldu;*

*Türkün qədim yolundan, əski çağından gəldin*
*Sanarsan göy üzündən - Tanrı dağından gəldin.*

*Sultanım, əyilmə sən, əyilməz Tanrı dağı,*
*Yağılara göz dağı - sönməz Türkün çırağı.*

*Turan eli türkün ata ocağı, Tanrı dağı türklərin birlik və güc mənbəyi sayılır. Bugünki reallıqda iki qardaş ölkənin gücünü və birliyini Şuşa bəyannaməsindəki imzalarda və Ağrı dağının bayrağımızın rənglərinə boyanmasında gördük. Harada türkün türkə qardaş əli uzanırsa orada Tanrı dağı, barlı - bəhrəli Həyat ağacı vardır. "Sultanım" Ərdoğanın dönəmində ağrılarımıza qarşı həmişə bir olduq. Məmməd Arazın ruhu şad olsun, "iydə dənəsi boyda qurğuşuna əl uzat"dıq, Qarabağı erməni və birləşmiş faşist işğalçılarından azad etdik, Allahın "Azərbaycan" adlı möhür torpağına - Şuşanın Cıdır düzünə alın qoyduq, bir olub birlikdə möhtəşəm "Zəfər dastanı" yazdıq*”. Çox böyük səmimiyyətlə inanıram ki. Əli Bəbiroğlu 44 günlük savaşın qələbəsinə münasibətdə sevgi ilə zəfərimizi tərənnüm edir. Bu məni sevindirir. Çünki həqiqətən bu qələbə dastanı Azərbaycan birliyinin qələbəsi idi. Belə düşünürəm ki, bu poemada da biz sözün həqiqi mənasında tarixi qələbəmizin bəxş etdiyi inamın, böyük ruhun tərənnümünü hiss edirik. Özü də onu deyim ki, Əli Bəbiroğlunun düşüncələri kifayət qədər orijinaldır. Özünəxas yanaşma ilə qələmə alınıb. Hətta bəzi məqamlarda o, “Türkiyənin zəlzələ ağrıları” poemasının müəllifinə öz adı ilə müraciət edir. Bu da o deməkdir ki, müəlliflə əsərin yaradıcısı arasında qırılmaz səmimiyyət körpüsü yaranıb.

İnsanları bir-birinə təkcə şəxsi münasibətlər, dostluq əlaqələri deyil, həm də mənəvi tellər bağlayır. Hətta bir-biri ilə yaxın, doğma qohumluq, dostluq münasibətində olan insanların əlaqələrindən də möhkəm olur şəxsən bir-birini tanımayan ancaq bir-birinə mənəvi tellərlə bağlı olan insanların əlaqələri. Açığı, Ə.Bəbiroğlu ilə “Türkiyənin zəlzələ ağrıları” poemasının müəllifi arasındakı ünsiyyəti mən məhz ikinci qrupa aid edirəm. Yəni şəxsi tanışlıq yoxdur, amma mənəvi doğmalıq var. Bu, çox qiymətlidir.

Ə.Bəbiroğlu əsərdən gələn təəssüratları əsasında həm də tele ekran vasitəsilə zəlzələ mənzərəsini xüsusi duyğulanmalarla yazısına gətirir. Oxucuya sanki həmin mənzərəni təzədən təqdim edir, özü də konkret olaraq əsərin müəllifinə müraciətlə: “*Hörmətli Əli Rza müəllim, sizin "Sultanım" dastanınız Azərbaycan - Türk birliyi və qardaşlığı şərəfinə yazılan son illərin ən qiymətli əsəri, əsərlərindən biri kimi ortalığa qoyulub. Çox dəhşətli, dağıdıcı gücü olan bu təbii fəlakətin acı nəticələri bizi sarsıtsa da bu dastanın qürur ruhundan aldığımız sağlam enerji bizi ümidləndirir, ayaqda tutur. Hadisə zamanı uşaqların sözləri və duyğuları yada düşür, kövrəlmiyə bilmirsən. Uşağın öz xilaskarına "Nə oluyor, ya?" sualına "Sən qəhrəmansan, oğlum" cavabı, digər yerdə qurtarılan uşağın "Sən nerədən gəldin?" sualına xilaskarının "Mən göydən gəldim" cavabı, daha bir digər yerdə dağıntılar altından çıxarılarkən anasının ölümündən xəbərsiz olan uşağın "Öncə anamı çıxarın" deməsi... Bütün bu qəmli notların arxasında bizi sabaha səsləyən ümid yaşayır. "Həyat var", "canı var" sorağını alan hər kəsin, ekran başında oturanların belə sevincinin həddi - hüdudu olmur*”. Ürək yandıran mənzərələrin dəqiq təsvirin verən bu cümlələri təzədən oxumaq kimsəyə asan gəlməsin. Çünki dağıntılar altından çıxan uşağın, yaxud bir qocanın iqtidardan düşmüş olan insanın son nəfəsində həyat işartılarını alması insanın əbədi həyata inamını yaşadır. Əlbəttə, konkret olaraq biz fərd kimi bu dünyada müvəqqətiyik. Ancaq öz əməlimizlə, həyatımızla yaşamaq haqqı ala bilərik. Ancaq həmin məqamda insanın ölümün cəngindən xilas olması, ümumiyyətlə, insanın ölməzliyi haqqında inam yaradır. Bir sözlə, hətta dağıntılar altından çıxmış olan uşağın, ya böyüyün nə baş verdiyini soruşması bizdə çox dərin duyğular oyadır. Bəlkə elə bundan sonra daha ağıllı yaşayaq, daha ağıllı düşünək, başqasına hörmətlə yanaşaq, bəlkə bu zaman bir də belə fəlakətlər baş verməz.

Düzdü, əsərin özündə də, hətta əsər haqqında yazılan rəylərdə də, elə Bəbiroğlunun qeydlərində də kədərli motivlər çoxdur. Amma bu kədərli motivlər bizi həyata olan inamdan məhrum etmir. Demək olar ki, yazıların hamısı bizə həyatın gözəlliyi hissini aşılayır. Yəni bütün çətinliklərə baxmayaraq, yaşamağın daha üstün olduğu qənaətinə gəlirik.

Əli Bəbiroğlu dünyanın tarixi taleyi ilə baş verən hadisənin mahiyyətini maraqla uzlaşdırır və hətta professor Yədulla Ağazadənin də vətəndaş obrazını klassik türk poeziyasından xatırlamaları ilə yazının nüvəsinə gətirir: “*Yaşı bilinməyən bu dünyanın dönərgəsi dönükcə zaman-zaman bizi bir nehrə kimi çalxalayır "yağı yağ üstə" yığır, "südü çürüyənin ayranını turşadır". Yaxşını - pisdən, haqqı - nahaqdan, gecəni - gündüzdən ayırmağı təbiət özü bizə öyrədir. Hələ uşaqkən qardaşım Yədulla Ağazadənin bloknotundan götürdüyüm bu bənd hər çətinliyimdə əlimdən tutub;*

*Zülmün topu var, gülləsi var, qələsi varsa,*
*Haqqın da bükülməz beli, dönməz üzü vardır.*

*Göz yumma Günəşdən, nə qədər nuru qaralsa,*
*Sönməz əbədi, hər gecənin Gündüzü vardır.*

*Qəmin kəm, Ərdoğana, Türkiyəyə elə Aərbaycana da təskinlik üçün yazılan yarıqəm, yarıqürür dastanı. Bir qəlbin deyil, milyon qəlbin, bir şairin deyil, bir xalqın istək və arzularını özündə ehtiva edən bu dastanın ruhunda qədim Türkün ölümsüzlük nəfəsi yaşayır. "Sultanım" Ərdoğan günümüzün Diriliş Ərtoğrulu, Osman qazisi olub Türkün qədim gücünə yeni dünyanın real güclərini qatmaqdadır*”. Ə.-Bəbiroğlu da yazısını tarixi obrazlarla süsləyir. Ərdoğana sevgi ilə “Sultanım” müraciətinin kimlərin dayandığını yada salır. Ərtoğrulun, Osman qazinin adlarını sevgi ilə çəkir və bu obrazları əsərin emosional təsiri altında oxuculara da sevdirə bilir.

Ə.Bəbiroğlu “Türkiyənin zəlzələ ağrıları” əsərini dastan adlandırır. Zənnimcə, səhv etmir. Axı müəllif də bu əsəri yarı qəm, yarı qürur dastanı adı ilə təqdim edib. İkinci başlıqda olsa da.

Əli Bəbiroğlu təsadüfi olaraq yazısının adını “70 illik milyon il” adlandırmır. Yəqin ki, burada “Türkiyənin zəlzələ ağrıları” poemasının yaradıcı kimi Əli Rza Xələflinin də ömrünün 70 illik yaşını yada salır. Əlbəttə, sözün həqiqi mənasında mübaliğəli yox, emosional mahiyyətdə onun düşüncəsinə görə 70 illik əgər belə əsərləri yaradırsa, demək, milyon ilə bərabərdir. Sonluqda bu düşüncələrə sanki açım verir və poemanın müəllifinə öz adı ilə müraciət edərək yazır: “*Hörmətli Əli Rza müəllim, türkün min illik, milyon illik dönəminin ədəbi - mədəni və əxlaqi tarixinin son 70 illik imzasında sizin də öz yeriniz, öz kürsünüz vardır. Türk - Azərbaycan - Turan birliyi adına atılan hər addım, tarixin daş yaddaşına yazılan hər yazı çox lazımlı və qiymətlidir. Bizi qəlbinizin böyüklüyünə, sözünüzün qüdrətinə inandırdığınız üçün Sizə "SAĞ olun" deyirəm*”. Beləliklə, möhtəşəm triadanı yada salan Ə.Bəbiroğlu oxucu düşüncəsinə Azərbaycanın tarixi taleyində işıq ola biləcək böyük yolu da göstərir. “Türk-Azərbaycan-Turan” - bu böyük birlikdir və həqiqət birliyidir. Nəhayət, məqalənin müəllifi əsərdən sonuncu beyti diqqətə çəkir:

*Qələm çaldım... güllənsin sözümün gülüstanı,*
*Qoy yaşasın yarı qəm, yarı qürur dastanı...*

Beləliklə, ədəbi düşüncədə emosional zəlzələ yaradan əsər haqqında yazılanlara münasibətimə burada ara verirəm. Nöqtə qoyuram demirəm. Çünki bu əsər elə bir xüsusi enerji qaynağıdır ki, ola bilsin, hələ çox duyğuları titrədəcək. Çox qələmlər sahibinin könlünü ovunduracaq söz yazmalı olacaq.

Əsərin ruhu ölməzlik motivləri üstündə köklənib. Yəni zəlzələ insanları öldürə bilər, insanlığı öldürə bilməz.

***Davamı 11-ci səhifədə***

# SEVGİNİN QARDAŞLIQ RUHU

*(Əvvəli 10-cu səhifədə)*

Cəmiyyətin ağrılı məqamlarında insanların ürək döyüntülərinə uyğun gələn təskinlik notları həmişə insanlar tərəfindən xüsusi münasibətlə qarşılanır. Əgər bir az da dəqiqləşdirsək, ağrıların yazıda görünən tərəfləri duyğulu insanlar tərəfindən həyəcanlarla müşahidə olunan əks-sədalara səbəb olur. Artıq dəfələrlə qeyd etmişik ki, Əli Rza Xələflinin *"Türkiyənin zəlzələ ağrıları"* poeması bir çox motivlərinə görə həm emosional baxımdan cəlbedicidir, həm də mənəvi olaraq insanları dar məqamda, çətin gündə səfərbər etmək üçün çağırış ruhunda qələmə alınıb.

Zəlzələ ayrı-ayrı insanların mövqeyi ilə hesablaşmayan enerji partlayışlarıdır. Burada kiminsə kimdən xoşu gəlib-gəlməməyin məsələyə heç bir dəxli yoxdur. Bütün hallarda zəlzələ ən azı mistik düşüncə ilə yanaşsaq, bəxt işidir. Əgər belə demək mümkünsə, *"Türkiyənin zəlzələ ağrıları"* poemasında müəllif sarsılan bir cəmiyyətə, tarixi yük daşıyıcısı olan böyük etnosa, onun liderinə müraciətlə öz duyğularını çatdırır. Onlara təlqin edir ki, bütün çətin məqamların daha ağrısız ötməsi üçün insanların bir-birinə doğmalığı, yaxınlığı, ünsiyyəti, bir-birinə həyan olması birinci şərtdir.

İnsafən, *"Türkiyənin zəlzələ ağrıları"* poemasında biz insanları mənəvi birliyə çağıran motivlərin çox qabarıq səsləniş ruhunu hiss edirik. Bir sözlə, əsər boyu müəllif öz hiss və həyəcanlarını məsnəvi janrı əsasında qələmə aldığı əsərdə beytlərə xüsusi məna yükü ilə toplaya bilir. Onun açıq-aydın mövqeyi insana ən ağır məqamda belə əyilməzlik ruhu aşılamaqdır. Görünür, *"Türkiyənin zəlzələ ağrıları"* əsərinə əks-səda kimi yazılan ədəbi-tənqidi, ədəbi-publisistik düşüncələrin müəllifləri də məhz bu cəhətinə görə əsəri xüsusi çoşqu ilə qarşılayıblar.

*"Türkiyənin zəlzələ ağrıları"* poeması dəhşətli fəlakətlər haqqında yazılan ədəbi örnəklər sırasında nə birincidir, nə də axırıncıdır. Çünki, bizə qədər də çoxlu fəlakətlər baş verib. Elə bu fəlakətlərin ən dəhşətli silsilələri sırasında Təbriz, Şamaxı, Gəncə zəlzələləri də var. Mən yazımın əvvəlki hissələrində bu ünvanla bağlı zəlzələlərin dəhşətlərini xatırlatmışam. İndi ona görə təkrar edirəm ki, insanlar unutmasınlar ki, zaman-zaman baş verən fəlakətlər hesablanmayan təbiət hadisələridir və hər zaman təkrar oluna bilər.

Çox güman ki, ədəbi mühitimizin böyük söz hadisəsi kimi *"Türkiyənin zəlzələ ağrıları"* əsəri də insanların hiss və həyəcanlarını bütün reallığı ilə əks etdirə bildiyindən diqqət mərkəzində olub. Bu əsər haqqında yazılar yəqin ki, hələ uzun zaman davam edəcək. Amma hər halda biz *"Türkiyənin zəlzələ ağrıları"* poemasına ilkin əks-sədaları nəzərdən keçirməli oluruq. Bu sırada filologiya üzrə fəlsəfə doktoru Şakir Əlifoğlunun *"Xələflinin fəlakət tablosu"* məqaləsi də xüsusi yer tutur. Əsas da ona görə ki, müəllif məqalədə poemanın mənzərə yaratmaq motivlərinə xüsusi diqqət verir. Yəqin ki, müəllif məqalədə onu əsas götürür ki, insanlar ən ağrılı məqamlarda hansı vəziyyətdə görünürlər. Və məhz bu görüntülərin insanların yaddaşına diktə olunması bir həqiqətə xidmət edir ki, bu da həyatın dəyərini bilməkdir. Əgər hər hansı bir şəxs özünün əməli fəaliyyət zamanında səhvə yol verirsə, bu, ən azı, təbii kataklizm zamanı öz cavabını alır. Bütün dəhşətləri ilə, ağrı-acıları ilə birgə.

Tədqiqatçı Şakir Əlifoğlu özünə qədərki mətnləri yada salır. Bununla da, öz yazdıqlarının da ədəbi mühitdə fikirlərinin zəncirvari bağlılığını göstərməyə çalışır. Bütün hallarda ədəbiyyatda, sənətdə varisliyin mahiyyəti onunla təyin olunur ki, sən hər hansı bir mülahizəni hansı fikir üzərində araya-ərsəyə gətirmisən. Şakir Əlifoğlu da bu əsər haqqında özündən əvvəl yazmış müəllifləri məhz bu niyyətlə xatırlayır. Ədəbiyyat tariximiz üçün gərəkli olduğundan Şakirin həmin xatırlamalarını diqqətə çəkməyi biz də özümüzə borc bildik: *"Şair-publisistƏli Rza Xələflinin Türkiyə zəlzələsində həlak olanların xatirəsinə həsr etdiyi "Türkiyənin zəlzələ ağrıları" adlı yarıqəm-yarıqürur dastanı (məsnəvi-poema və ədəbi düşüncələr) işıq üzü görüb. Kitabın ("Gənclik", 2023) redaktoru və Ön söz müəllifi prof. Təyyar Salamoğlu, rəyçiləri Əməkdar mədəniyyət işçisi Adil Abdullayev, şair Sərvar Hüseynoğlu və ədəbiyyatşünas Əli Bəbiroğludur"*. Bəli, artıq bu müəlliflərin qeydlərini təsadüfi xatırlatmırıq. Adil Abdullayevin adını ayrıca qeyd etmək yerinə düşər. Əməkdar Mədəniyyət işçisidir. Ən başlıcası, sözlə, sənətlə nəfəs alan adamdır. Əgər o, *"Türkiyənin zəlzələ ağrıları"* əsəri haqqında düşüncələrini qələmə alıbsa, deməli, böyük təbii fəlakətin ağrılarını o da öz varlığından keçirib. Yaxud, Şakirin xatırlatdığı Sərvaz Hüseynoğlu, Əli Bəbiroğlu kimi tədqiqatçıların hər biri türk mənəvi mühitinin yaşantılarını, əlbəttə, ağrılı yaşantılarını yazılarında əks etdirməyə çaışıblar və buna nail olublar.

Professor Təyyar Salamoğlunun əsərə daha geniş aspektdə yanaşması göstərir ki, bu poemanın məziyyətləri zaman-zaman tədqiq olunacaq, üzə çıxarılacaq. Bu mənada Şakirin münasibətini təbii qəbul etmək lazımdır. Müəllif, yəni, Şakir Əlifoğlu öz məqaləsində əsərin yazılma səbəbini birbaşa zəlzələ ilə bağlayır. O da qeyd edir ki, zəlzələ insan iradəsindən kənarda olan hadisədir. Ancaq belə hadisələr gərək insanı insanlığından çıxara bilməsin. Zənnimcə, təbii hadisələrlə bağlı yazılan nə varsa, hamısının mərkəzində məhz bu həqiqət dayanır. Şakir elə doğru olaraq yazır: *"Əsərin adından da göründüyü kimi, poema qardaş Türkiyədə baş verən dəhşətli və irimiqyaslı zəlzələ ilə bağlı qələmə alınıb. Məlumdur ki, zəlzələ təbii fəlakətdir və onun qarşısını almaq hələ ki insan iradəsi xaricindədir:*

*Allah özü acizdir, hesabı fələk sayıb,*
*Gəncəni aciz qoyub, Kəpəzi parçalayıb.*
*Əvəzində Göygölü güzgü verib insana,*
*"İbrətlə bax, ey könlüm" bu çətinə, asana...*

*Bu misralarla müəllif hələ dahi Nizami zamanında ölkəmizdə baş verən dağıdıcı zəlzələni xatırladır, bildirir ki, Uca Tanrının, Böyük Allahın adlarından biri olan Fələk bu amansız oyunu - çərxi-fələyin gərdişi ilə dünyanı, bəşəriyyəti fəlakətə salır".* Bundan sonra Şakir Əlifoğlu xalq düşüncəsindən gələn motivlərlə hadisənin şərhini mistik düşüncə istiqamətində göstərməyə çalışır. Əlbəttə, biz mistik düşüncənin motivləri ilə razılaşa da bilərik, razılaşmaya da bilərik. Bu hər kəsin öz dünyagörüşünün nəticəsidir. Bütün hallarda baş verən hadisənin insan iradəsindən kənarda olması təbii olaraq, mistik düşüncəyə də yol açır. Bu baxımdan yanaşanda biz Şakir Əlifoğlunun real elmi əsaslara söykənən təbii fəlakəti mistik düşüncələrlə izah etməyə çalışmasını qəbahət sanmaya bilərik.

Hər halda, Şakir Əlifoğlu folklorşünasdır. Tədqiqatlarının da bir çox tərəfi elə mistika ilə bağlıdır. Biz çox istəyərdik ki, o, baş verən hadisələri elmi əsaslarla şərh etsin. Bütün hallarda, müəllifin xalq deyimlərinə güvənərək baş verən hadisəni reallıqdan kənar mistik düşüncə ilə bağlamasında da maraqlı tərəflər var. Ona görə də müəllifin mistik mövqeyinə bir qəbahət kimi də yanaşmamaq olar. O yazır: *"Buna el arasında qəlibləşmiş ifadə ilə "Sən saydığını say, gör fələk nə sayır" məsəlimizdə də açıq-aşkar işarə olunub. Yəni Allah-təalanın 99(1001) adı var ki, onlardan bir adı da Fələkdir. "Fələyi dindireydim" misrası ilə başlanan bayatımızda da "yazı yazdığı yerdə qələmin sindireydim" deyə fələyə qarşı tuşlanmış qəzəb hissi də məhz bu cür amansızlıqların Fələyin ucbatından olduğuna işarədir. Müqayisə üçün deyək ki, Allahın adlarından biri də Qəhhardır (qəhr edən, zülm edəndir) və Allah lazım bildiyi məqamda istədiyinə amansız zülmünü edir. Buna da el arasında "Allahın zülmü tutubdu (filankəsi)" və s. tipli ifadələrimizdə dolayısı ilə olsa da, rast gəlirik".* Doğrudur, bu qeydlərin bəlkə də heç əsərə də bir o qədər dəxli yoxdur. Amma hər halda onun zəlzələyə mistik yanaşmasının motivi kimi mövqeyini oxuculara çatdırmağı özümüzə borc bildik. Burada bir məsələni ayrıca qeyd edirəm; hər bir müəllif bilməlidir ki, təbiətdə baş verən hər hansı bir hadisə müəyyən qanunauyğunluqla şərh olunmalıdır. Özü də elmi qanunauyğunluqla.

Doğrusu, bu sarıdan poema müəllifinə bir iradımız yoxdur. Çünki o, əsər boyu hadisənin mahiyyətini elmi düşüncədən kənarda axtarmır. Bunlar öz yerində. Şakir Əlifoğlu isə əsərə sözün həqiqi mənasında yüksək dəyər verir. Elə bu dəyərlə də ayrı-ayrı parçaları misal gətirməklə fikirlərini əsaslandırmağa çalışır: *"Bax şair-publisist Ə.R.Xələfli bu məsnəvi-poemasında Türkiyədəki belə bir dəhşətli zəlzələni ürək ağrısı ilə təsvir edir:*

*Gözlərimin önündə fəlakət tablosu var,*
*Qəlbimdə yara-yara həlakət tablosu var.*

*Məhz bu "fəlakət tabolusunu" Fələk öz amansız gərdişi ilə canlı-canlı çəkib, bəşəriyyəti, Türkiyəni "çərxi-fələyin" zülmünə məruz qoyub".* Göründüyü kimi elə bu qeydin özündə də poema müəllifinin sənətkarlığını təqdir edən ifadələr işlədir. Əsəri *"böyük fəlakət tablosu"* adlandırmaqda israrlı olduğunu göstərir.

Sözün həqiqi mənasında əsərin fəlakətin ən dəhşətli anlarını təsvir edən məqamları oxumaq oxucu üçün asan başa gəlmir. İnsan insan dərdindən kənarda olmadığını hiss edir. Biz Şakir Əlifoğlunun sözün həqiqi mənasında, öz qeydlərini sarsıntılar içərisində yazdığını onun təəssüratlarından da aydın duya bilirik: *"Poemada zəlzələ iniltilərilə bir sırada - paralel şəkildə "Sultanım" müraciətini tez-tez işlədən şair Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğana səslənir, Azərbaycan Prezidentinin simasında bütün xalqımızın bu çətin anlarda qardaş Türkiyə ilə birlikdə olduğunu dilə gətirir.*

*Azərbaycan adından danışan Baş Komandan,*
*Sevgimizi çatdırır bir könüldən, bir candan.*
*Sultanım, tək qoymarıq səni kədər əlində,*
*Ağrı çəkir canımız qəza-qədər əlində.*

*Bu misralar isə dərdin-kədərin insanlar-qardaşlar arasında bölüşdürülməklə azaldıldığını, dərdinin üstündən dərd götürüldüyünü, çiyninin üstündən ağır yükün azaldığını demək istəyir".* Müəllifin dərdə, kədərə şərik olmaqla insanın üzərinə düşən ağırlığın azaldılmasına yönəlik olduğunu qeyd edən bu fikirləri ilə razılaşmamaq mümkün deyil. Bir sözlə, müəllif əsəri ona görə təqdir edir ki, əsər böyük türk xalqının təbii fəlakət qarşısında sarsıntıdan üzülməməsi üçün mənəvi dayaq sədası kimi yazılıb. Bir sözlə, biz məqalə müəllifi ilə poema müəllifinin mövqeyini burada bir yerdə hiss edirik. Əsər boyu böyük türk xalqına təskinlik üçün yazılmış qanadlı duyğularla ifadə olunmuş əsər emosional təbiəti ilə insanlara mənəvi təpər bəxş edir, güc aşılayır. Onları böyük fəlakət qarşısında sınmamağa çağırır. Birmənalı şəkildə onu qeyd etmək lazımdır ki, əsərdə müraciət olunan *"sultanım"* obrazı əslində böyük türk xalqının özünün obrazıdır. Zənnimcə, Şakir də öz mövqeyində məhz fələyə qarşı bir nəfərin yox, mənəvi mühitin bütövlükdə təmkinli, səbirli dayanışını göstərməyə çalışır.

Şakir Əlifoğlu yaxşı deyir; axı insan övladı nə qədər güclü olur, olsun, o fələkdən ki, güclü ola bilməz. Amma fələyin qarşısında mətinliyini, mətanətini göstərmək gücündə ola bilər: *"Bununla həm də Fələyin amansızlığına qarşı insanların birləşib meydan oxuduğunu və ağrı-acıya qalib gəlmək istəyini, ümidini ifadə eləyib. Üstəlik, "Sultanım" müraciəti Dünya Liderlərindən olan Rəcəb Tayib Ərdoğanın qətiyyətinə, yenilməzliyinə eyhamdır:*

*Türkiyənin önündə Turana yol açırsan,*
*Alp Ər Tonqa ruhuna qəlbindən nur saçırsan.*

*Ona görə poema "yarıqəm, yarıqürur" adı ilə təqdim olunur ki, bu ağır qəmin yanında həm də Türk dünyasının qüruru sayılan R.T.Ərdoğan vardır və onun iradəsi, yenilməz qüruru sayəsində bu ağrı-acılar da dəf olunacaqdır".* Nəhayət, məqalə müəllifi böyük təbii fəlakət qarşısında mənəvi qürurun təmsilçisi kimi Ərdoğanın adını xatırlayır. Və bunu xüsusi rəğbətlə mənəviyyatından gələn səs kimi təqdim edir. Sözünün sonunda isə Ərdoğana münasibətini xüsusi rəğbətli duyğularla ifadə edir: "Bəli, axı padşahlar, sultanlar həm də yer üzündə Allahın elçiləri, kölgələridirlər. Allahın kölgəsi Türkiyənin üstündədirsə, deməli, Türkiyənin xilası da olacaq, sabahı da xoşbəxt olacaqdır. Ə.R.Xələflinin poemada vermək istədiyi mesaj da elə bu nikbinliyə əsaslanır".Zənnimcə, müəllif öz məqaləsini dəqiq məntiqə əsaslanan düşüncələri ilə yekunlaşdırır. Biz maraqlı bir yazı ilə də qeydlərimizi sona çatdırmaq istərdik. Ancaq onu da oxucu diqqətinə yetirməyi vacib hesab edirik ki, müəllifin bir çox mistik düşüncələri ilə razılaşmasaq da, onun fikirlərinin də ədəbi düşüncə baxımından maraqlı olduğunu qeyd etməliyik.

Həyat gözlənilməzliklərlə doludur. Biz sabahın hər hansı bir gözlənilən və ya gözlənilməyən hadisəsinə də ruhən hazır olmalıyıq. Zənnimcə, Ə.Xələflinin "Türkiyənin zəlzələ ağrıları" əsəri də məhz bu fikri təlqin edir.

***12.06.2023***